**Tarix və onun problemləri, №1-2 2009**

**ANAR ƏLİYEV**
***Beynəlxalq münasibətlər kafedrasının aspirantı***

# SAHİLYANI DÖVLƏTLƏRİN XƏZƏR SİYASƏTİ

Xəzərin beynəlxalq hüquqi statusu haqqında məsələ 1992-ci ildən indiyə kimi sahilyanı dövlətlərin ikitərəfli və çoxtərəfli görüşlərində dəfələrlə müzakirə obyekti olmuşdur. Hövzənin dəniz ya göl olması fikrində konsensusu gəlmək mümkün olmadığı üçün Xəzərin qəti huquqi statusu hələ ki, müəyyən edilməmişdir. Buna baxmayaraq Xəzəyanı dövlətlərin bir qismi arasında problemlə bağlı konsensus mövcuddur. Hazırda Azərbaycan və Qazaxıstan, Azərbaycan və Rusiya, Rusiya və Qazaxıstan arasında dənizin dellimitasiyası haqqında razılaşma mövcuddur. Problemə İranın və Türkmənistanın münasibəti isə mübahisəli olaraq qalır ki, bu amil hövzə ölkələri arasında regional əməkdaşlığa ciddi ziyan vurur.

Baxmayaraq ki, Qazaxıstan və Rusiya arasında Xəzərin şimal hişsəsinin bölünməsi (sərhədləşdirilməsi) haqqında 1998-ci ildə saziş imzalanmışdır, hələ də coğrafi amil problemi qalmaqdadır.

Azərbaycan və Qazaxıstan Respublikaları xeyli müddətdir ki, milli sektorlara bölünmə konsepsiyası ətrafında ortaq məxrəcə gəlməyə müvəffəq olmuşlar.

Bu konsepsiyanın tərəfdarları Azərbaycan, Qazaxıstan və indi Türkmənistandır. Onlar üçün Xəzərin statusunun beynəlxalq dəniz hüququna görə müəyyən edilməsi əsasdır, prinsipialdır.

1.Qazaxıstan, Azərbaycan, Türkmənistan əlverişsiz cografi mövqedə yerləşən, açıq dənizə birbaşa çıxışı olmayan qitədaxili ölkələrdir. Buna görə Xəzərin bu ölkələr üçün kommunikativ mənası çox böyükdür.

2.Xəzər dənizi hövzəsi öz neft və qaz ehtiyatlarına görə İran körfəzi rayonu ilə bərabərləşdirilir. Bu zənginliklər Xəzəryanı dövlətlər üçün iqtisadi və sosial inkişaf nöqteyi nəzərindən böyük strateji əhəmiyyət kəsb edir və onlardan istifadə üçün bu dövlətlərə beynəlxalq hüquqi bazanın mövcudluğu vacibdir.

3.Təbii ki, hamı həyatı cəhətdən maraqlıdır ki, Xəzər mübahisə obyekti olmasın, əksinə mehriban qonşuluq və dostluq dənizi olsun. Belə ki, onlarsız milli iqtisadiyyatlarımızın, gələjəkdə xalqlarımızın inkişafı və ölkələrimizin çiçəklənməsindən söhbət gedə bilməz.

Bundan başqa mineral resurslarla daha az zəngin olan sektorların sahibi olan dövlətləri, ilk növbədə Rusiya və İranı neft ehtiyatlarının (yataqlarının) istismarında iştirakı üçün razılaşmalar nəzərdə tutulur.

Beləliklə, yuxarıda qeyd olunduğu kimi, Xəzərin dəniz kimi tanınması onun beynəlxalq dəniz hüququ normalarına uyğun delemitasiyasına imkan verir (ilk növbədə BMT-nin dəniz hüququ haqqında 1982-ci il Konvensiyasına uyğun olaraq). Yada salmaq gərəkdir ki, «Xəzər gölü» konsepsiyanın tərəfdarları Xəzər hövzəsinin qapalı olduğuna istinad elərək, ona beynəlxalq hüquq normalarının tətbiqinin mümkünsüz olduğunu deyir və Xəzərdə hansısa bir xüsusi rejim yaradılmalı olduğunu hesab edirlər.

Yeni Xəzəryanı dövlətlər mövcud statusla təkcə ümumi istifadə sahələrinin statusuna tabe olmaq məcburiyyətini müəyyən edən normalara görə razılaşmır, həmçinin müvafıq aktlar sovet federasiyasının obyektləri kimi, onların adından və icazəsi ilə SSRİ tərəfindən qəbul edilmişdir. Xəzərin mövcud statusu, onun modifikasiyalaşmasına qədər (beynəlxalq hüquqla müəyyən olunacaq yeni statusun qəbul olunmasına qədər) bütün sahilyanı dövlətlərin sülhsevər vasitələrlə qarşılıqlı anlaşması qüvvədədir.

Uyğun prosesin qaydası-yekdillik və ya konsensusdur. Bu nöqteyi nəzəri İran da dəstəkləyir. «Düşünülmüşdür ki, kondoninium yaradılması ilə Xəzərin dərhal bir çox məsələlərinə həll tapılacaq, belə ki, o uyğunlaşdırılmış və daimi yurisdiksiya altında olduqca, sahilyanı dövlətlərdən hər birinin suveren istifadə hüququnu həyata keçirdikcə ümumi mülkiyyət statusu əldə edəcəkdir. Kondominium hüququ statusu regionda sülh yaradacaq, Xəzərin hüquqi problemlərindən olan bioresurslardan istifadə, boru çəkilişi və kommunikasiya, coğrafi cəhətdən əlverişsiz şəraitdə yerləşən sahilyanı dövlətlərə Volqa-Don kanalı vasitəsi ilə Qara və Baltik dənizlərinə çıxaraq ticarət naviqasiyası etmək imkanı verməklə Xəzərin iqtisadi inkişafını təmin edəcəkdir. Xəzərin problemi üçün başqa həll yolları bu problemin yalnız genişlənməsinə səbəb olacaqdır.»(5)

Azərbaycan Respublikasının prezidenti H.Əliyev cənablarının 1997-ci ilinyanvarında Fransaya rəsmi səfəri zamanı «Euronews» beynəlxalq telekanalınaverdiyi müsahibəsində Xəzər probleminə toxunmuş və Azərbaycanın bu məsələdə mövqeyinin düzgünlüyünü bir daha bəyan etmişdir: «İndiki halda Qazaxıstanla Azərbaycan bir mövqe tutur, Rusiya ilə İran isə başqa mövqe. Türkmənistan Rusiya ilə İranın mövqeyinə qoşulur. Tamamilə qanunauyğun haldır ki, hər ölkənin öz mövqeyi vardır. Biz hesab edirik ki, bizim mövqe daha düzgündür: çünki Xəzər dənizinin mineral ehtiyatlarından istifadə üçün onun sektorlara bölünməsi artıq çoxdan yaranmış praktikadır. Xəzər dənizinin statusu əvvəllər heç vaxt qaldırılmayıb. Əvvəllər heç kəs düşünmürdü ki, Xəzər necə adlansın - dəniz, göl, yoxsa daxili sututar. Kaspi özü üçün qalmaqda idi. İndi isə biz onun mineral ehtiyatlarından istifadə etməyə, müqavilələr imzalamağa başladıqda ona böyük maraq yaranmışdır və hərə öz xəttini yeritmək istəyir. Hesab edirik ki, bizim mövqeyimiz daha düzgündür». Azərbaycan Respublikasının prezidentinin Xəzərlə bağlı mövqeyi respublika konstitusiyasına əsaslanır; konstitusiyasının 11-ci maddəsinin 2-ci bəndində göstərilir: «Azərbaycan daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir»(2, 26).

Azərbaycan Respublikası sahilyanı dövlətlərin Xəzər dənizindən istifadə edilməsinin təşəkkül tapmış təcrübə əsasında müvafiq sektorlar çərçivəsində ənənəvi iqtisadi fəaliyyətin həyata keçirilməsinə istinad edir.

Azərbaycan Respublikasının konseptual mövqeyinə görə Xəzər dənizi sahilyanı dövlətlərin suveren hüquqları və yurisdiksiyası şamil olunan müvafiq sektorlara bölünməlidir. Xəzər dənizinin sahilyanı dövlətlər arasında sektorlara bölünməsi ortaq xətt prinsipi nəzərə alınmaqla, bu dənizdə təşəkkkül tapmış təcrübə, beynəlxalq hüququn ümumtanınmış prinsipləri və sahilyanı dövlətlərin Xəzər dənizində suveren hüquqlarının tətbiq olunması əsasında həyata keçirilməlidir(11).

Eyni zamanda bu mövqenin tərəfdarları yaxşı başa düşürlər ki, bu problemin həlli-beş sahilyanı dövlətin hər birinin işidir. Dövlətlər neçə dəfə öz mövqelərini sahilyanı dövlətlərə sırımamaq tələbi ilə çıxış etmişlər (eyni ifadəni digər konsepsiyanın tərəfdarları da dəfələrlə istifadə etmişlər). Onlar Xəzər hövzəsinin həm coğrafi, həm də xarici-siyasi cəhətdən unikallığını öz çıxışlarında təsdiq ediblər.

Bununla bərabər Xəzər dənizi çay və kanallar sistemi vasitəsilə Baltik və Qara dənizlə birləşir. Konvensiyada buna «keçid» deyilir, lakin bu keçidin tam, yaxud qismən olması haqda heç nə deyilmir.

Əgər razılaşsaq ki, Xəzər dənizi başqa bir dənizlə birləşmir, onda Konvensiyanın 122-ci maddəsi tam şəkildə qapalı dənizlərə aiddir və onların hər sahilyanı dövlətin ərizi suları, müstəsna iqtisadi zona və kontinental şelf zonasına bölünməsini nəzərdə tutur. Delimitasiyanın metodikası Konvensiyanın 15, 74 və 83-cü maddələrində göstərilib.

Xəzərin göl və ya dəniz olması sualına cavab sahilyanı dövlətlərin beynəlxalq hüquqa uyğun şəkildə hüquqlarının müəyyən olunması prosedurunun seçilməsi zamanı məna kəsb edə bilər, lakin belə bölünmənin nəticəsinə böyük təsir göstərməyəcək.

Beynəlxalq praktika və beynəlxalq hüquq bölünmə problemi ilə qarşılaşmış, yəni bu yolu keçmişdir (həm göl-hadisəsi həm də dəniz-hadisəsi zamanı).

Burada Konstans gölünü (sovet ensikolopediyasında Boden gölü) misal göstərmək olar. 1867-ci ildə Baden, Bavariya, İsveçrə və Vürtenberq tərəfindən imzalanan Berpens Müqaviləsi hüquqi statusun yenidən baxılmasını əks etdirirdi. Lakin əlbəttə ki, alman gəmiləri Kondominium quran bu müqaviləni rədd etmişdilər.

Digər bir misal İsveçrə və Fransaya məxsus olan Cenevrə gölüdür. 1818-ci ildə İsveçrə və Sardiniya arasında bağlanan sazişə görə Cenevrə gölü bölünmüşdür. Böyük göllər (Yuxan, Hudron, Miçiqan, Eris, Ontario) Kanada və ABŞ arasında danışıqların predmetləri olmuşlar. Danışıqlarda həmçinin hərbi-dəniz qüvvələri, gəmiçilik və hərbi gəmilərin məhdudlaşdırılması məsələlərinə də toxunulmuşdur. Bu razılaşmalardakı məhdudiyyətlərə əsasən II Dünya müharibəsi illərində ABŞ-ın hərbi təlim proqramı bu göllərdə silahlanmasız həyata keçirilirdi. Bundan başqa əsir alınmış alman sualtı gəmisi Çikaqoya gətiriləndə (hərbi əsir kimi), razılaşmalarda sualtı gəmilərə münasibətdə məhdudiyyətlərə görə bir çox çətinliklərlə qarşılaşmışdır.

Tarix boyu «daxili dənizin hüquqi rejimi» fərqli ölkələr tərəfindən onların yaşadığı regiondan asılı olaraq fərqli başa düşülmüşdür. «Daxili dəniz» adlandırılan su hövzələrinin çoxu, ensiz boğazlar vasitəsilə Dünya okeanı ilə birləşən daxili dənizlərdir. Siyasi coğrafiyada belə dənizlər, məsələn Karib və ya Baltik dənizi tez-tez iki və ya daha artıq ölkələrin dövlət sərhədlərinin toqquşduğu yer olur.

Bu cəhətdən o diqqəti cəlb edir ki, BMT 1982-ci il dəniz hüququ haqqında Konvensiyanı dənizlərin rejimi məsələləri üçün universal və ümumi sənəd kimi qəbul edir. Digər beynəlxalq hüquqi aktlar Konvensiyaya zidd olmadıqda istifadə oluna bilərlər. «Xəzər dənizi» konsepsiyasının tərəfdarları beynəlxalq dəniz hüququnun Xəzərə aid olmadığı iddialarını (hüquqi əsas olsa belə) rədd edirlər. Eyni zamanda Xəzərin su səthi (ilk növbədə söhbət dənizçilik, balıqçılıq və ekoloji aspektlərdən gedir) ümumi istifadə obyekti olmalıdır və Xəzəryanı dövlətlərin konsensusuna tabedir.

Qapalı dənizlərin delimitasiyası BMT-nin 1982-ci il Dəniz Hüququ haqqında Konvensiyası ilə reqlamentləşir. Konvensiyaya əsasən qapalı və yanqapalı dənizlərlə sərhədi olan dövlətlər, bu Konvensiyanın qərarlarına uyğun olaraq bir-birilə əməkdaşlıq etməlidir. Bu məqsədlə onlar aşağıdakı məsələlərdə diqqətli olmalıdırlar(1):

a)dəniz resurslarının istifadəsi, çıxarılması, qorunması və idarə olunmasının koordinasiyası;

b)ətraf mühitin qorunmasında, lazımi hallarda hüquq və vəzifələrin yerinə yetirilməsinin koordinasiyası;

c)elmi tədqiqatların və lazımi hallarda ortaq (müştərək) araşdırma müəssisələrinin siyasi koordinasiyası;

d)ehtiyac olarsa, bu maddənin həyata keçirilməsi üçün əməkdaşlıq məqsədilə beynəlxalq təşkilatlar və ya digər maraqlı dövlətlərin dəvət olunması.

Xəzərin mövcud hüquqi rejiminə (1921-ci ildə RSFSR və İran, 1940-cı ildə SSRİ və İran arasında müqavilələrlə müəyyən olunmuş) gəldikdə isə, onlar sadəcə ən ümumi halda ticarət dənizçiliyi və balıqçılıq məsələlərini tənzimləyir, lakin Xəzərin hüquqi statusunu ümumi həcmdə əhatə etmir.

Hava məkanından istifadə rejimi, dəniz dibindən istifadə rejimi, ekologiya rejimi məsələləri, həmçinin ərazi dənizi, müstəsna iqtisadi zona, kontinental şelflə bağlı məsələlər yuxarıda göstərilən müqavilələrdə əks olunmayıb. Çünki, bu məsələlər ilk dəfə

1958-ci il Cenevrə Konvensiyası və 1982-ci il BMT-nin Dəniz Hüququ haqqında Konvensiyasında baxılmış və «kontinental şelf», «müstəsna iqtisadi zona» terminlərinin hüquqi mənası verilmişdir. Buradan belə çıxır ki, Xəzərin hüquqi statusu yenidən yazılmalıdır, çünki 1940-cı ildən sonra qapalı (daxili) su hövzələrilə bağlı praktika dəyişilmiş, irəli addımlamış və beynəlxalq hüquq bəşəriyyətə yeni fikirlər gətirdiyinə görə, köhnələrlə yaşamaq olmaz.

Xəzərin ətrafında ekoloji vəziyyət isə dövlətlərin birgə səyləri və əməkdaşlığı sayəsində həll edilə bilər. Əlbəttə ki, Xəzər dəniz kimi tanınsa, BMT-nin Konvensiyasının 10-cu hissəsinə uyğun olaraq, qitədaxili ölkələr olan Azərbaycan, Qazaxıstan və Türkmənistanın ədalətli prinsiplər əsasında Volqa-Don və Volqa-Baltik kanalları sistemindən tranzit hüququ və açıq dənizə çıxış hüququ təmin edilməlidir. Bu prinsip eynilə İran və digər tranzit ölkələrin kommunikasiya sistemlərinə də aiddir. Volqa beynəlxalq gəmiçilik yolu olmasını Volqa-Don kanalına borcludur, bu kanal isə Rusiya ərazisində yerləşdiyindən onun suverenliyi altındadır və Rusiyanın razılığı olduqda və ya müvafiq müqavilə əsasında istifadə edilə bilər.

Müasir dövrdə buna oxşar hadisələr vardır. Məsələn: süni Süveyş kanalında, kanal və boğaz bir dövlətin yurisdiksiyasına tabedir, lakin beynəlxalq gəmiçilik üçün müəyyən şərtlərlə açıqdır.

Digər bir misal kimi Kil kanalını göstərmək olar. Bu kanal Baltik və Şimal dənizlərini birləşdirir və tamamilə Almaniyanın ərazisindən keçir. Kil kanalı I Dünya müharibəsindən öncə qurulmuş və 1919-cu il Versal Sazişinə uyğun olaraq beynəlxalq gəmiçilik üçün açılmışdır. II Dünya müharibəsindən sonra onun bu statusu (nasist Almaniyası tərəfindən ləğv edilən) yenidən qaytarılmışdır. Beləliklə kanal Almaniya ilə sülh münasibətlərində olan bütün dövlətlərin hərbi və ticarət gəmiləri üçün açıqdır.

Volqa-Don kanalından istifadənin (bütün sahilyanı dövlətlər tərəfindən) müsbət həlli, regionda sülhün güclənməsi və ticarət əlaqələrinin güclənməsinə təkan verə bilər.

Sonda qeyd etmək lazımdır ki, Xəzərə «dəniz» adı verilməsi onun əhatə etdiyi sahə ilə də bağlıdır. Xəzər İran və Oman körfəzlərinin birlikdə ərazisi qədər sahəni əhatə edir.

Bundan başqa Xəzərin sualtı ehtiyatları da çox zəngindir. Xəzərin duzluluğu və bioresursları dünya dənizləri ilə onun oxşarlığını göstərir. Xəzərin fərqləndirici ən mühüm fərqi isə onda kontinental şelfın və karbohidrogen ehtiyatlarının mövcudluğudur.

Məhz karbohidrogen ehtiyatlarının mövcudluğu sovet hökuməti dağıldıqdan sonra yaranan yeni respublikaları Xəzərin statusunu müəyyən etməyə sövq etdi. Belə ki, Xəzərin dəniz olduğu tanınandan sonra, BMT-nin 1982-ci il dəniz hüququ haqqında konvensiyası buna tam hüquqla tətbiq edilə bilər və yalnız bundan sonra ehtiyatların bölünməsi baş tuta bilər.

Göstərilən yanaşmalar aşağıdakı beynəlxalq konvensiyalarda Xəzərin beynəlxalq hüquqi statusunun müəyyən edilməsi zamanı dəfələrlə toqquşmuşdur:

Aşqabad (30 yanvar - 2 fevral 1995), Tehran (28-29 iyun 1995), Almaata (26-27 sentyabr 1995), Tehran (20-22 may 1996), Aşqabad (11-12 noyabr 1996), Almaata (22-23 may 1997), Moskva (16-17 dekabr 1998), Aşqabad (2002 aprel).

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə müasir beynəlxalq hüquqda toplanmış təcrübə lazımi meyarları verir. Beynəlxalq hüquq normalarından, müasir beynəlxalq hüququn təjrübəsindən çıxış etsək, sərhədboyu beynəlxalq göl – fərqli dövlətlərin quru ərazilərilə əhatə olunmuş göldür. Sərhədboyu (beynəlxalq) göllərin sularından istifadə dövlət sərhədi xətləri gəmiçilik və qeyri-gəmiçilik məqsədilə istifadəsi qaydalarını müəyyən edən beynəlxalq razılaşmalar vasitəsilə tənzimlənir (4, 76).

Belə bir fikir mövcuddur ki, sərhədboyu göllər, göl sahili boyu dövlətlər tərəfindən qəbul edilən beynəlxalq müqavilə ilə müəyyən olunmuş sərbəst beynəlxalq hüquqi rejim statusuna malik olan, Dünya okeanına birbaşa çıxışı olmayan dövlətlər tərəfindən (bir və ya bir neçə) əhatə olunan göllərdir. Göstərilən meyarlar tamamilə Xəzərə uyğun gəlir.

Xəzərin beynəlxalq hüquqi statusunu müəyyən edən digər bir mühüm məqam, gölün resurs və ərazi bölgüsüdür. Saysız-hesabsız mübahisələr elə onun ətrafındadır ki, kim Xəzərin ən çox resurs olan və ən böyük ərazili hissəsini alacaqdır.

Belə bir vəziyyət bizi delimitasiya məsələsinə gətirib çıxarır. Siyasi və iqtisadi xarakter daşıyan mübahisələrdə əsas sual «Xəzər dibinin sərvətlərinə kim və nə ölçüdə iddia edə bilər?» sualı olmuşdur.

Vaxtında aparılmış delimitasiya gələjəkdə şelf zonasının zənginliyi ilə bağlı mübahisələrin qarşısını ala bilər. Xəzərin sahilboyu göl kimi huquqi qaydada statusunun qəbul edilməsi bu əsasda onun delimitasiyasının keçirilməsinin əsaslarını müəyyən edəcəkdir. Bunlar aşağıdakılırdır: sahilyanı dövlətlərin müvafiq sektorların verilməsi bölgüsü və su səthi, dəniz dibi və təki üzərindən, hava məkanı ilə dövlət sərhəd xətti çəkilməsi, sərhədlərin müəyyən edilməsinin hər bir sahilyanı dövlət üçün əhəmiyyəti vardır, belə ki, onlar bütün resursları ilə birlikdə məxsus olacaq ərazinin sərhədləridir.

Xəzər regionu Rusiyanın və İranın xarici prioritet mövqelərindən birini tutur.

Bu məsələ ilə bağlı Rusiya Federasiyasının rəsmi bəyanatlarında qeyd olunur ki, «Rusiyanın başlıca mövqeyi odur ki, yalnız Xəzər sahilində yerləşən beş dövlətin bugün Xəzər və onun resurslarına münasibətdə müstəsna hüquqları vardır. Xəzər dənizinin statusunu, onun istifadəsinin forma və metodlarının müəyyən edilməsi bu beş dövlətin işi hesab edilir. Xəzər dənizinin hüququ statusu ilə bağlı hər hansı razılaşma «beşliyin» ümumi razılığı əsasında mümkündür».(10)

Rusiya hesab edir ki, Xəzər dənizinin hüquqi statusu mövcuddur. Bu hüquq 1921-ci il 26 fevral tarixli Rusiya Sovet Sosialist Respublikası və İran arasında Müqavilə və SSRİ və İran arasında 25 mart 1940-cı il tarixli Ticarət və Gəmiçilik haqqında Müqavilə ilə müəyyən olunur. Bu müqavilələrlə qurulmuş sərbəst gəmiçilik və balıqçılıq hüququ, qeyri-xəzər ölkələri bayraqlı gəmilərinin üzməsinə qadağa indi də fəaliyyət göstərir və ciddi riayət olunmalıdır. Bu «köhnə» və «yeni» Xəzəryanı dövlətlərə bərabər hüquqda aid edilir, belə ki, 1991-ci il 21 dekabr Alma-Ata Bəyannaməsində MDB iştirakçıları bəyan etmişlər ki, onlar keçmiş ittifaqdan irəli gələn beynəlxalq öhdəlikləri yerinə yetirəcəklərinə zəmanət verirlər.

Rusiyaya görə, sovet-İran müqavilələrinin əsasını təşkil edən «ümumi su» prinsipi özünü doğrultmuşdur və Xəzərin yeni hüquqi statusunun yaradılması zamanı da saxlanmalıdır. Bununla bərabər onlar Xəzəryanı dövlətlərin sahilyanı sularında yurisdiksiyanı genişlətməklərinə etiraz etmir, indi mövcud olan 10 millik balıqçılıq zonasının əvəzinə (yerinə) sərhəd, gömrük, sanitar və digər nəzarət, həmçinin balıqçılıq və bioresursların qorunması məqsədilə dövlətlərin öz milli yurisdiksiyasının həyata keçəcəyi iki sahilyanı zona yaratmaq olar. Bu zonaların yeri ümumi razılıq əsasında müəyyən edilməlidir. Lakin o «ümumi su» prinsipini pozmamaq üçün həddindən artıq geniş olmalıdır. Bundan başqa milli zonaların son sərhədləri olan xətlər dövlət sərhədləri hesab olunmayacaq.

İndi isə Xəzərin dibi və təki probleminə baxaq. Məlumdur ki, sovet-İran müqavilələri ilə dəniz dibindən istifadə tənzimlənmir. Keçən əsrin 90-cı illərində Rusiya İranla birlikdə Xəzərin sularından ümumi istifadə rejimini onun mineral resurslarına da şamil edilməsini təklif edirdi. Kondominium haqqında bu təkliflə digər Xəzəryanı dövlətlər razılışmadılar. Bundan sonra Rusiya kompromis həll metoduna üz tutdu. O qərara gəl-

di ki, iki əks mövqe olan kondominium və milli sektorlara bölünməni yaxınlaşdırsın və ortaq məxrəcə gətirsin. Sonda Rusiya «dibi bölürük -su ümumi qalır» prinsipini Xəzərin yeni statusunun əsası kimi təklif etdi. Burada konkret olaraq həmhüdud ölkələr arasında Xəzərin dibinin bölünməsi nəzərdə tutulur (nəticədə bu dövlətlərdən hər biri dəniz dibindən istifadə üçün suveren hüquqlarını keçirə biləcəyi ərazi sahəsinə malik olacaq). Bununla bərabər başa düşülməlidir ki, bölünmə xətti territorial (ərazi) və ya sərhəd xətti olmayacaq, sadəcə sahilyanı dövlətlərin resurs yurisdiksiyasının sərhədlərini müəyyən edəcək.

Rusiya inanır ki, bütün bu istiqamətlərdə konsensus razılıqlarına nail olmaq üzərində paralel olaraq, yəni eyni zamanda müvafiq razılaşmaları hazırlayaraq işləmək lazımdır. Bu və ya digər razılışmanı digər istiqamətlərdə işlərin gedişatından asılı olmayaraq həyata keçirmək gərəkdir. Bütün razılaşmaların eyni anda qüvvəyə minməli olduğu göstərilən «vahid paket» konsepsiyası Rusiya üçün qeyri produktiv görünür, belə ki, o artıq əldə olunmuş razılıqların reallaşmasına əngəl törədir, onları daha uğurlu danışıqlar prosesinin əsirinə çevrilir.

Rusiyanın Xəzər siyasətinin mühüm tərkib hissəsindən birini də ekologiya təşkil edir. Hamıya məlumdur ki, Xəzərdə ekoloji vəziyyət gündən-günə pisləşir, suların çirklənməsi artır, bioloji resurslar tükənir. Rusiya hesab edir ki, Xəzərin hüquqi statusu ilə bağlı Konvensiya yaradılması səyləri ilə yanaşı, ətraf mühiti qoruma, çirklənmənin qarşısını alınmasını, fövqəladə hallara cəld reaksiya kimi Xəzər problemitakasının digər aspektləri üzrə də razılışmalar əldə ounması istiqamətində səy göstərmək lazımdır. Onların fıkrincə hüquqi status haqqında Konvensiya yaradılıcağını gözləmək səhv olardı.

Xəzərdə təsərrüfat fəaliyyətinin ekoloji aspektlərinə xüsusi fıkir verən Rusiya, beştərəfli hökumətlərarası Xəzər ekoloji mərkəzini yaratmaq təklifı ilə çıxış edir. Onun funksiyalarına Xəzər dənizinin təbii mühitinin vəziyyətinin monitorinqi, Xəzərdə və sahilyanı zonalarda bioloji resursların artması, karbohidrogen məhsullarının daşınıması və çıxarılması zamanı, gəmiçilik və digər fəaliyyət üzrə davranış qaydalarının razılaşdırılması daxil olmalıdır. Bu mərkəz regional və milli təbiəti müdafiə fəaliyyətinin koordinasiyasını həyata keçirə, təbiəti müdafiə sahəsində beynəlxalq təşkilatlarla iş apara bilərdi. Bu ideya artıq Azərbaycan və Qazaxıstan tərəfindən dəstəklənmişdir.

Rusiyanın Xəzərdə digər bir ekoloji təşəbbüsü təsərrüfat fəaliyyəti aparılması üzrə ekoloji təhlükəsizlik normalarının sərtləşdirilməsi təklifıdir.

İlk növbəli tədbirlər kimi yataqların istismarı və qazma zamanı təhlükəsizliyi təmin edən texnologiyanın tətbiq edilməsi və bu praktikanın bütün Xəzər dənizi üzrə birgə fəaliyyəti razılaşdırmaq təklif olunur. Rusiyanın dediyinə görə məhz ekoloji təsəvvürlər (problemlər) onları transxəzər sualtı borularının tikilişi (quraşdırılması) məsələsində sərt mövqe tutmağa vadar edir. Məlumdur ki, belə boruların fəaliyyəti (çalışması) Xəzərin qapalı olması, axınların istiqaməti və aktiv seysmiklik cəhətdən istisnasız bütün sahilyanı dövlətlər və Xəzər su hövzəsinə bütövlükdə yetmək ekoloji risk təşkil edir. Buna görə onlar hesab edirlər ki, Xəzəryanı dövlətlərin beşini də razı salacaq, seysmik təhlükəsizlik də daxil olmaqla, ekoloji tədqiqatın aparılması şərtilə Xəzərdə magistral boru kəmərbrinin salınması mümkün ola bilər. Bundan başqa aydındır ki, belə boru kəmərlərində qəza baş verməsi zamanı zərərin ödənilməsi haqqında hüquqi öhdəliklərlə bağlı müvaflq müqavilələr imzalanması da şərt kimi qəbul olunmalıdır.

Karbohidrogen məhsulların daşınması ilə bağlı Rusiya hesab edir ki, eksport marşrutların planlaşdırılması iqtisadi cəhətdən məqsədəuyğun (əlverişli) olmalıdır. Əks halda boru kəmərlərinin operatorları onların tam doldurulması və investisiyaların aşağı gəlirliliyi (az səmərəliliyi) problemləri ilə qarşılışacaq. Rusiya tərəfinin fıkrincə, artıq mövcud olan boru kəmərlərindən istifadə daha uyğun olardı. Onların təkmilləşdirilmə-

si və inkişafı yenilərinin tikilməsindən daha az vəsait tələb edir, mineral xammalın istifadəsilə daha tez və ucuz çatdırılmasına imkan yaradır.

Dəniz dibinin sərhədləşlirilməsinin (bölünməsinin) üzərində ayrıca dayanaq. Rusiya hesab edir ki, bu məsələnin həllini bilavasitə maraqlı olan, ölkələrin ixtiyarına vermək lazımdır. Məsələn, Rusiya və Qazaxıstan, Rusiya və Azərbaycan özlərinə şəklini dəyişmiş orta xətt metodu, Azərbaycan və Qazaxıstan isə coğrafi orta xətt metodunu seçmişlər.(7) Rusiya Xarici işlər nazirinin müavini bu barədə demişdir: «Biz öz seçimimizi ehkam və ya mütləq hesab etmirik. Əsas odur ki, sərhədləşmə (bölünmə) xətti onu çəkənlər üçün münasib olsun». Rusiyaya görə maraqlı tərəflər əvvəlcə dəniz dibindən istifadə zonalarının bölünməsi haqda yox, konkret mübahisəli struktur və məkanların bölünməsi və ya birgə mənimsənilməsi haqqında razılığa gəlməlidir. Resurs bölgüsü metodundan istifadə zamanı sahələrin kvadrat-mil və ya faizlə hesablanmalarına ehtiyac olmur. Bu metodun istifadəsi Cənubi Xəzər regionunda yerləşən sahilyanı dövlətlərin arasında məlum fikir ayrılıqlarının (ziddiyətlərin) aradan qaldırılmasına kömək edə bilərdi. Çünki bu ziddiyyətlərəslində sahələrlə yox, resurslara bağlıdır.

Problemlə bağlı İran və Türkmənistanın kəsişən və ortaq mövqeləri bu iki dövlətin yaxınlaşmasında başlıca şərtdir.

İran İslam Respublikası öz mövqeyini tam ifadə etməmişdir. Onun Xəzərlə bağlı xüsusi mövqeyi vardır. İranı Xəzərin dəniz və ya göl olması maraqlandırmır, onu daha çox təhlükəsizlik və İranın fikrincə Xəzərdə fəaliyyət göstərən qərb kompaniyalarından gələn təhlükənin aradan qaldırılması problemi narahat edir. İran Xəzərdə kondominium yaradılmasını dəstəkləyir.

İranın Xəzər dənizindəki rəsmi mövqeyini xarakterizə etmək mümkündür:

a)Xəzərin ərazi sularından ibarət sərhədlərə bölgüsü, harda ki, hər dövlətin suda, dəniz dibində, torpağın alt qatında və havada xüsusi suverenliyi olacaq.

b) Dəniz dibinin çöl hissəsinin və milli sektorlara daxil olan torpaqaltı qatının qaz və neft resurslarının istismarı məqsədilə olan bərabərhüquqlu proposional bölgü. İran əvvəlki kimi dövlət ərazi sularından kənar ərazilərdə naviqasiya və balıqçılıq azadlığını təbb edir. İranın mövqeyində son dövrlərdə görünən yumuşalma Xəzər probleminin gözlənildiyi kimi öz həllinə yaxın olduğunu sübut edir.

İranın Xəzərdəki suverenliyi ilə bağlı tarixi sənədlər 1723-cü il İranla Rusiya arasında bağlanmış ittifaq sazişi və 1962-ci il İranın Xarci İşlər Naziri Abbas Aram və SSRİ-nin Tehrandakı səfiri Nikolay Peqov tərəfindən imzalanmış İran-Sovet memorandumudur. Birinci sənəddə İran Xəzərin uzunluğunu Rusiyaya güzəştə getdi. İran-Rusiya quru sərhədlərinin əsasını qoyan 1725, 1732, 1813, 1828, 1881, 1893, 1921 və 1957-ci il sazişləri Xəzərin ancaq qərbdə qurtaran və şərqdə başlayan sərhədlərinə aid ola bilərdi. 1962-ci il Aram-Peqov memorandumuna qədər heç bir saziş İrana Xəzərin bir hissəsini vermədi.

Soyuq müharibənin gedişində və Amerikanın nüvə raketlərinin İran ərazisində SSRİ-yə qarşı yerləşdirilməsinin çox real mümkünlüyündə 1962-ci il Aram-Peqov memorandumu ilə İran Amerikan nüvə raketlərinin onun ərazisində yerləşdirilməsinə razılıq vermədi və əvəzində SSRİ Abşerondan Xəzərin cənubunda yerləşən Həsən Kiadehə qədər xəttin İrana aid olduğunu tanıdı.

Onların nəzər nöqtəsinə dəstək olaraq İran və Rusiya 3 tarixi sənəd nümayiş etdirdilər: 1921-ci il İran -Sovet Dostluq Müqaviləsi, 1940-cı il Ticarət və Naviqasiya Konvensiyası və 25 mart 1940-cı il diplomatik notaların mübadiləsi. Hamısını birgə götürdükdə İran iddia edir ki, onlar Xəzər üzərində İran-Sovet şərikliyini təsdiq ediblər. Lakin bu görüş ciddi hüquqi faktlarla təstiqlənməyib.

1921-ci il müqaviləsi İran ilə Sovet Rusiyasının post çarist münasibətlərini nizamlayan strukturu təmin etmişdi. Lakin bu heç bir tərəfin Xəzərdəki suverenliyindən xəbər vermirdi. Baxmayaraq ki, Sovetin İrandakı ilk diplomatik nümayəndəsi 1918-ci il iyunda Xəzəri İranın ən qədim mülklərindən biri kimi qeyd etmişdi. Leninin 1920-ci il layihə qərarlarında Xəzər dənizi bütünlüklə Rusiyanın mülkü hesab olunur. 1921-ci il müqaviləsində çar ənənəsinə uyğun Xəzərə sadəcə olaraq Rus gölü kimi baxılmış və İrana sadəcə olaraq Xəzərdə donanma saxlamaq hüququ tanınmışdır. Lakin bu müqavilədə Xəzərin mühavizəsi əsaslı şəkildə Rusiyanın əlində olduğu göstərilir(3).

1940-cı il konvensiyası Xəzərdə İran-Sovet bərabər fəaliyyətinə, o cümlədən sərbəst naviqasiyaya şərait yaradırdı. Həmçinin hər bir tərəf öz sərhədlərindən 10 mil məsafədə balıqçılar üçün ərazi ayırırdı. Lakin konvensiya Xəzər dənizində heç bir tərəfə ərazi süverenliyi verməmişdir. 1940, 25 mart tarixli konvensiya diplomatik notaların mübadiləsini bildirirdi. Lakiri notanın məzmunundan aydın olur ki, heç bir tərəf kondominium yaratmaq niyyətində deyil və şərikliyin yaradılmış bərabərlik formasını tanımağı ifadə etmir. Nota dənizin İran-Sovet xarakterli olmasına burada üçüncü bir millətin fəaliyyətini nizamlaması kimi baxırdı(8).

Kondominium ideyası mərkəzi Moskva və Tehranın Xəzər dənizimn rejimi haqda baxışına qulluq edirdi. 1996-cı ilin noyabr ayında İran, Rusiya və Türkmənistan tərəfindən imzalanmış deklarasiyada qeyd olunurdu:

Xəzər dənizi onun bütün sahilyanı dövlətlərinə aiddir və onun neft resursları dövlətlərin bərabərhüquqlu razılığı olmadan dənizin resurslarını istismar edə bilməz. Bu da o demək idi ki, İran və onun kimi digər dövlətlər də dənizin gələcək istismarına veto qoymaq hüququ qazanırdı.

İran-Rusiya mövqeyi realistik çıxmadı.

Artıq Azərbaycan öz konstitusiyasında Xəzərin müəyyənləşmiş hissəsinin onun suveren ərazi olması iddiasını irəli sürmüşdü. Beynəlxalq şirkətlər neft üçün Bakıya toplaşdılar. Qazaxıstanın da öz sahilyanı ərazisində neft çıxarmaq üçün icazəyə ehtiyacı az idi. Şimali Xəzər sahillərinə qonşu olan ərazilərdə neftin tapılması Rusiyanin mövqeyini dəyişdi. Belə ki, Rusiya da Azərbaycan və Qazaxıstan kimi Xəzərin dəniz dibi və torpaqaltı qatının milli sektorlara bölünməsini tələb etməyə başladı.

1998-ci il aprel ayında Rusiya və Azərbaycan öz sahillərindəki dənizdibi ərazilərini milli sektorla bölmək haqda razılığa gəldilər. İran belə inkişafa razı deyildi. 1998 -ci ilin iyulunda Rusiya və Qazaxıstan sahillərindəki dəniz dibinin milli sektorlara bölüşdürülməsi barədə razılaşdılar. Bu vaxt İran və Türkmənistan öz etiraz səslərini daha da ucaltdılar. Onlara görə bu sazişlərin heç biri kütləvi deyil, sərhəd qurmaq üçün ölçü götürən rus-qazax sazişi öz-özlüyündə ayrıca gizli protokolun subyektidir.

İranın mövqeyi Rusiyanın öz mövqeyini dəyişməsinin və Xəzərdə azəri-türkmən mübahisələrinin mümkün həllinə baxmayaraq İranın təcrid olunmasının artmasının nəticəsidir.

İranın fıkrincə onlar Xəzər dənizindəki ərazi suverenliyinə münasibətdə mövqeyi əlavə inkişaflar, sahilyanı dövlətlərlə beynəlxalq danışıqlar tələb edir. İrana görə birincisi İran Birləşmiş Millətlərdə (BMT) "Aram-Peqov" memorandumunu tanıtmalıdır ki, Aram-Peqov xətti tərəfindən müəyyən olunmuş ərazidə (hansı ki, bəzi yerlərdə hətta 80 milə qədər genişlənir) öz haqlarının beynəlxalq tanınmasına nail olsun.(6)

İkincisi, Aram-Peqov xəttinə daxil olan ərazilər tran parlamenti tərəfindən İranın daxili suları kimi tanınmalıdır. Onlar hesab edir ki,bu Azərbaycanın birtərəfli şəkildə əraziləri öz sektoruna daxil etməsindən daha çox mümkündür.

Üçüncüsü, İran Aram-Peqov xəttini başlanğıc və ya əsas xətt kimi bəyan edəcək, hansı ki, burdan başlayaraq İranın gələcək ərazi maraqları ya birtərəfli ya da Xəzəryanı dövlətlər ilə birgə həll ediləcək.

Nəhayət Abşeron və Kiadehdən dəniz istiqamətinə Cənubi Xəzəri bölmək üçün 2 düz xətt çəkiləcək. Piroq kəsiyi formasında ərazi alınacaq ki, İran da buranı öz xüsusi iqtisadi zonası kimi elan etməlidir.

İranda çap edilən bir qəzetdə deyilir: "Xəzərə dəniz, göl və ya necə baxılır baxılsın, bu Xəzərin hal-hazırki və ya gələcək hüquqi rejimi üçün heç bir fərq yaratmayacaq. Kimlər ki, sərhəd yaradırlar onlar Xəzərin hüquqi rejimini müzakirə edərkən hər hansı bir dəniz, göl və çay sərhədlərini nizamlayan rejimlərə istinad etməlidilər. Buna görə Xəzərin statusu məsələsi öz həllini Xəzəryanı dövlətlərin çox diqqətli danışıqları, proposional şəkildə bölünmüş resursların istifadəsi, hövzənin nadir coğrafı və hidroqrafık xüsusiyyətlərinə və burada çox qədimdən mövcud olmuş tarixi vəziyyətinə hörmət vasitəsilə tapacaq".(9)

Türkmənistanın mövqeyinə gəldikdə isə, onda bir qədər qeyri-müəyyənlik hiss olunur. O Xəzərin qəti olaraq dəniz və ya göl adlandırılmamış milli sektorlara bölünməsinin, ehtiyac olarsa "kondominium" yaradılmasının tərəfindədir.

Türkmənistan prezidentinin «Azəri» neft yatağına iddiaları ilə Rusiya daha bir siyasi arqumenti ortaya atır: Xəzərin statusu müəyyənləşməmiş Azərbaycanın neft hasilatı işlərinə başlaması milli sektorların sərhədləri üstündə yeni mübahisələrə gətirib çıxarar və s.

Xəzər keçmiş SSRİ-nin mirası kimi respublikalar arasında keçmiş bölgüyə əsasən milli sektorlara ayrılıb. Belə bölgü 1970-ci ildə baş verib və bir halda ki, keçmiş SSRİ respublikaları quru sərhədlərini olduğu kimi qəbul ediblər, onda məntiqi olaraq dəniz sərhədlərini də qəbul etməlidirlər.

1978-ci ildə yaradılmış «hüquq varisliyi haqqındakı» konvensiya bu sahədə ən tutarlı arqumentdir. 1997-ci ilin fevralın əvvəllərində Türkmənistan prezidenti Xəzərin statusu ilə bağlı hətta bir qədər də irəli gedib «Əsrin müqaviləsi»nə daxil olan «Azəri» və «Çıraq» neft yataqlarına iddia qaldırmışdır. Azərbaycan prezidentinin, respublika xarici siyasət idarəsinin vaxtında gördüyü tədbirlər nətijəsində S.Niyazlv hökuməti öz iddialarını geri götürməli oldu. Son zamanlar Türkmənistanın mövqeyinin bəhs olunan məsələdə xeyli yumşalması bir sıra faktorlarla bağlıdır ki, bunların içərisində Türkmənistanda hakimiyyət dəyişikliyi və mövcud reallıqları dərk etmək xüsusilə əhəmiyyətlidir.

## *ƏDƏBİYYAT*

1.BMT-nin 1982-ci il Dəniz hüququ Haqqında Konvensiyası, 123-cü maddə
2.Nəsirov E. Azərbaycan nefti və Beynəlxalq müqavilələr (1991-1999). Bakı, 1999
3.Altınpeker A. Hazar Denizinin Tarihi ile İlgili Olan Bilgiler. (s.140)
4.Шорохов В. Нефть и политика Азербайджана. М.: ЦМИ, 1997, 87с
5.Communique of the Ministry of Foreign Affairs of the Islamic Republic of Iran (www.mfa.ir)
6.Iran's Stances on the Caspian Sea.Interview of Dr.Hamidrza Assefi.www.azer.net
7.Key Constraints to Caspian Pipeline Development: Status, Significance and outlook James A. Baker for «Public Policy Paper»
8.Payvand's İran News. Legal and Political Solutions in Preventing the Division of the Caspian sea
9.The Iranian. Iran's revolving position in the Caspian Sea
10.www.inmid.ru/Политика на Каспийском направлении в 2004 году
11.www.mfa.gov.az/ Xəzər dənizinin hüquqi statusuna dair arayış.

**АНАР АЛИЕВ**

## КАСПИЙСКАЯ ПОЛИТИКА ПРИКАСПИЙСКИХ ГОСУДАРСТВ

В результате распада СССР между пяти самостоятельными государствами под названием разделения карбогидрогенных ресурсов началось дипломатическая, политическая борьба за определением юридического статуса Каспийского моря.

Самая большая доля ресурсов Каспийского моря принадлежит Казахстану. Его доля составляет выше 29 процентов, для Азербайджана, Туркменистана и России составляет всего 19 процентов. Самая меньшая доля (11%) Каспийских ресурсов принадлежит Ирану. Он начал борьба за расширения своей территории и это привело к тому, что началось обсуждения вопроса разделения территории морской дни как альтернативный вариант

В статье рассматривается вопрос юридического статуса Каспийского моря в контексте сотрудничества прикаспийских государств и выдвигаются ряд интересных мысль.

Учитывая научно-теоретическое и практическое значения стати считаю целесообразным ее опубликование.

**ANAR ALIEV**

## THE CASPIAN POLICY OF SEASHORE STATES

As a result of collapsing of the USSR, in the area of water of Caspian, under the name of distribution of carbohydrogen reserves in basin and order to determine the legal status of Caspian there was diplomatic struggle between five independent states. Kazakhstan has the biggest portion in the seed in the Caspian surrounding countries. Its portion is more than 29 per cent. The portion of Azerbaijan, Turkey and Russia is 19 per cent. Iran which has the least portion in the sea (11 per cent) began to broaden its territory with struggle and the matter of discussed as the alternative variant.

In the article the matter of legal status of Caspian on the context of relationship with seashore states is again taken into consideration and some interesting offers are put forward. According to scientific theoretic and practical importance of the article I consider its publication will be fruitful.

***Rəyçilər: Q.H.Məmmədov, t.e.d.İ.X.Zeynalov.***

***BDU Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi Beynəlxalq münasibətlər kafedrasının 02 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol 02).***